# TÜRK DÜNYASINA ÜMUMİ BİR BAXIŞ



Osmanlı İmperatorluğunun siyasət səhnəsindən silinməsi ilə birlikdə başlayan qarışıqlıq və xaos, təxminən bir əsirdən bu çoxdur ki davam etməktədir. Bölgə xalqları uzun illərdir savaşların və zülümlərin altında əzilməktədir. İki Dünya Savaşı görən və bu savaşlarla birlikdə aclıq, köç etmək və epidemiya xəstəlikləri ilə qarşı-qarşıya qalan xalqların böyük əksəriyyəti də savaşların ardından komunist idarəçilərin təzyiq və şiddət dolu idarələri altında əzilmişlərdir. Soyuq Savaş dövrünün sona çatması ilə birlikdə başlayan etnik çatışmalar nəticəsində isə daha çox dərin və şiddətli acılarla qarşı-qarşıya qalmışlardır. 1990-cı illərin əvvəllərindən etibarən Balkanlarda və Qazqazda başda qadınlar, uşaqlar və yaşlılar olmaq üzrə günahsız xalq savaşların və hərc-mərcliyin təzyiqi altında əzilməktədir.Yaxın Şərqdə isə işğalçı İsrail güclərinin başlatdığı işğal və zülm 50 ildən uzun bir zamanda ,heç dayanmadan höküm sürməktədir.

Bu problemlərin qısa bir zaman ərzində həll olunması üçün şərait yaradılması və Osmanlı coğrafiyasında yenidən sabitliyin təmin edilməsinin ilk addımı bölgədəki mövcud vəziyyətin çox gözəl anlaşılmasıdır. Çünki  istər Yaxın Şərq,istərsə Qafqaz və Balkanlar sahib olduqları coğrafi və stratejik əhəmiyyət səbəbi ilə bir çox ölkənin diqqət mərkəzində olur. Bu nöqteyi-nəzərdən siyasi və iqtisadi çıxarların çox yaxşı dəyərləndirilməsi, həlli yollarının tapılması, və çox yönlü bir strategiyanın müəyyənləşdirilməsi son dərəcə əhəmiyyət kəsb edir.Problemlərin düzgün bir şəkildə həll olması üçün ən vacib mərhələ olacaqdır. Bu səbəblə də adı keçən bölgələrdə son vəziyyətin ümumi bir təhlilini aparmaq çox önəmlidir.

**Balkanlar**

> "*İgidlərim,bu gün sizin sevginizlə titrəyən bu Kosova meydanı, Allahın izni ilə müzəffər bir şəkildə dalğalanacaq olan şanlı bayrağımızın Macarıstan içərilərinə doğru getməsini,bundan sonra heç bir düşmən həmləsi durduramayacaqdır.*"
>
> Murad Hüdavendigarın Kosovo Meydan Savaşında əsgərlərinə etdiyi çıxışdan

Balkanlar.

Balkanlarda bu günə qədər olub bitənlər və gələcəkdə olması ehtimalı olan hadisələr haqqında doğru fikir əldə edə bilmənin və hadisələri doğru şəkildə dəyərlədirə bilmənin yolu Türkiyənin bölgə ilə tarixi əlaqələrini düzgün təsbit etməkdən ibarətdir.Bu səbəblə Türklərin Balkanlara gəlişi qədər, bu torpaqlardan necə və hansı məqsədlə çıxarılmağa çalışıldığını da yaxşı anlamaq gərəklidir.

Türklər  Balkanlara ilk addımı Süleyman Paşanın əmrindəki Osmanlı ordusunun 1353-cü ildə Çanaqqala Boğazını keçib Rumeli torpaqlarını fəthi ilə atdı.1389-cu il Kosova Savaşı isə bir yandan Sırpları tarixi bir məğlubiyyətə məhkum edərkən, digər yandan Balkanlarda Osmanlının yenilməz bir güc olduğu gerçəyini ortaya qoydu.1521 də Qanuninin Belgradı almasıyla qısa zaman ərzində bütün Balkanlar Türklərin hakimiyyətinə keçdi.

Bir çox hissəsi dağlıq və qayalıq olan, dərin vadilərlə parçalanmış və sıx bitki örtüləriylə bağlı Balkanlarda coğrafi quruluşun bir nəticəsi olacaq ünsiyyət və nəqliyyat hər zaman çətinliklə əldə edilmişdir.("Balkan" sözü də, dağlıq bölgə mənasını verir) Nəqliyyat və ünsiyyətin zəifliyi isə, bir-birlərinə qonşu olaraq yaşamalarına baxmayaraq,mədəni cəhətdən bir-birindən çox uzaq, hətta bir-birinə düşmən xalqlar meydana gətirmişdir.Etnik fərqliliklərə,mədəni fərqlilik də əlavə olunca düşmanlıqlar daha da artmış, Balkanlar qeyi-sabitliyə açıq bir bölgə halına gəlmişdir. Balkanlarda,əsirlər boyunca yüzlərcə dövlətin qurulmasının və yüzlərcəsinin yox olmasının ən önəmli səbəblərindən biri fərqlilikləri düşmənliyə çevirən bu mühafizəkar və içinə qapalı Balkan mədəniyyətidir.

Bu səbəbdən Türkiyəyə düşən, Balkanlardakı etnik və dini mozaikanı düzgün analiz etmək və bu mozaika içində, öz tarixi kimliyinə uyğun bir strategiya təyin etməkdir. Bunu edərkən etnik, dini və mədəni dəyərlərin dünya siyasətidə hər keçən gün daha da çox əhəmiyyət qazandığını,dünyanın getdikcə daha artan bir şəkildə mədəniyyətlər arasındaki münasibətlərlə təyin olunacağını da xatırlatmaq lazımdır. Balkanlar, etnisite, din və mədəniyyət kimi anlayışların ən təsirli olduğu bölgələrin  başında gəlməktədir. Başqa  bir sözlə, Soyuq Savaşdan sonra dünyada, Türkiyə Balkanlara baxarkən öz tarixi və mədəni kimliyini ön plana daşımalı və bu kimliyə uyğun bir strategiya müəyyənləşdirməlidir.

Balkanlarda qalıcı barışın bərpa edilməsinin yolu, Türk-İslam mədəniyyətinin dövlət anlayışından keçməsidir.Bu gün hər cür texniki,texnoloji və əsgəri imkana sahib olan Qərb, bölgəyə sadəcə əsgəri güc yığınağı  etməklə kifayətlənməkdə, ancaq bölgə xalqlarının  özlərini güvəndə hiss edəbiləcəyi asayiş və nizamı təmin edə bilməməktədir. Əksinə edilən xarici müdaxilələr bölgədə yaşananları daha da qarışıq hala gətirməkdə,zülmün sürətini və şiddətini artırmaqdadır.

https://www.harunyahya.info/az/meqaleler/turk-dunyasina-umumi-bir-baxis